**UOT 39**
**https://doi.org/10.59849/2218-4783.2024.2.122**

**ASƏF ORUCOV**

# XALÇAÇILIQ SƏNƏTİ MİLLİ-MƏNƏVİ DƏYƏRLƏRİN NÜMUNƏSİ KİMİ (Naxçıvan materialları əsasında)

*Məqalədə Naxçıvanda xalçaçılığın yaranma və inkişaf tarixi araşdırılır. Tədqiqatlar nəticəsində xalçaçılıq qədim dövrlərdə aşkar edilmiş, lakin orta əsrlərdə inkişaf səviyyəsinə çatmışdır. Tədqiqat nəticəsində xalçaçılıqla bağlı adət və inanc sistemləri və xalq rəsm sənətində boyama sənəti araşdırılmışdır. Məqalədə eyni zamanda, ermənilərin Naxçıvan xalçalarına əsassız iddialarından bəhs olunmuşdur.*

**Açar sözlər**: *Naxçıvan, xalça toxuma, milli-mənəvi dəyərlər, rəngləmə.*

**Giriş.** Milli-mənəvi dəyərlərimizi özündə əks etdirən, bir etnosun milli kimliyini, intellektini, dünyagörüşünü, estetikasını və həyat fəlsəfəsini ortaya qoyur xalçaçılıq sənəti. Bu sənət nümunəsi həmçinin insanların sosial rifahının yaxşılaşması üçün mühüm vasitələrdən biridir. Naxçıvan xalçaları sadəcə xalça deyil, bunlar həm də xalqımızın tarixini, mədəniyyətini, incəsənətini və məişət tərzini özündə yaşadan qiymətli nümunələrdir.

Azərbaycanda xalçaçılığın, xalçanın və xalça məmulatlarının (çuvalların, məfrəşlərin, xurcunların və s.) ölkəmizdə yaranma tarixinin dəqiq müəyyənləşdirmək olmasa da, əldə olunan materiallar əsasında bu haqda müəyyən fikir söyləmək olar. Belə ki, Naxçıvanın Kültəpə ərazisindən O.Həbubullayev arxeoloji qazıntılar zamanı gildən düzəldilmiş toxucu alətləri – iy və cəhrə aşkar etmişdir. Buradan həmçinin gildən düzəldilmiş qabların içində qırmızı rəng tapılmışdır ki, boyaq otlarından alınan bu rənglərlə insanlar xalça iplərini boyadığı qeyd edilmişdir. O.Həbubullayev Kültəpədə yaşayan qəbilələrin ilk dəfə primitiv xalça toxuduqlarını e. ə. IV-III minilliyə aid olduğunu bildirmişdir [6, s. 127]. Cənubi Azərbaycanın Maku şəhərindən tapılmış gildən düzəldilmiş at fiqurunun (e. ə. II minillik) üzərində gül-çiçək təsvirləri ilə bəzədilmiş çul rəsmi, Urmiya gölü yaxınlığındakı Həsənli təpəsindən aşkar edilmiş qızıl camın (e. ə. I minillik) səthində üstünə çul salınmış şir təsviri və başqa tapıntılar Azərbaycanda xalça sənətinin nə qədər qədim tarixə malik olduğunu göstərir. Arxeoloji qazıntılar zamanı Mingəçevirdən I-III əsrlərə aid katakomba qəbirlərdən palaz və xalça qalıqları aşkar edilmişdir. Yunan tarixçisi Ksenofont (bizim eramızdan əvvəl V əsr) bildirir ki, farslar xalçalardan istifadə etməyi midiyalılardan öyrənmişlər. Tarixçi Sebos Bizans hökmdarı Herakliusun 628-ci ildə Naxçıvanda əldə etdiyi qənimətdən danışarkən qızıl və gümüş saplarla naxış vurulmuş çoxlu xalçalardan söz açır. X əsrin ikinci yarısına aid “Hüdud Əl-Aləm” əsərində Naxçıvanın zili və xalçaları barədə ətraflı məlumata rast gəlmək olur. Bundan əlavə XIV əsrdə yaşamış Həmdullah Qəzvini Naxçıvan sənətkarlarının çox yüksəkkeyfiyyətli xalça toxumaları barədə məlumat vermişdir [12]. Bütün bu kimi faktlar Azərbaycanda, o cümlədən Naxçıvanda xalçaçılığın qədim zamanlardan mövcud olduğunu sübut edir. Ancaq Naxçıvanda xalça toxuma sənətinin qədim olmasına baxmayaraq xalçaçılığın müstəqil sənət sahəsi kimi inkişafı orta əsrlər dövrünə təsadüf edir.

Ev məişətinin zəruri ünsürünə çevrilmiş xalça-palaz məmulatı təkcə yaşayış binalarının daxili sahmanında deyil, habelə feodal sarayları, məscid, mədrəsə, xanəgah, ibadətgah, zorxana, karvansara və digər ictimai binaların döşəmə və divarlarının bədii tərtibatında əsrlər boyu başlıca yer tutmuşdur [1, s. 446].

**Xalçaçılıqla bağlı adətlər və inanclar.** Xalçaçılıq xalqımızın məişətində mühüm yer tutduğu üçün onun adətlər və inanclar sistemində də bu sahə geniş intişar tapmışdır. “Hana üstünə getmə” adəti deyilən bir adət vardır elimizdə, obamızda. Bu adət-ənənəyə görə xalça toxumaq üçün hanaya əriş çəkiləndə qohum-qonşu xeyir-dua vermək üçün hana üstünə gedər, şirinlik verərdi. İnanca görə ayağı yüngül (uğurlu) olduğu sınanmış adamı ilkin olaraq hana üstünə göndərərdilər.

Hansı evdə xalça hanadan kəsilərdisə, həmin evdə olan subay qızın tezliklə ailə qurması üçün üzərində ilk dəfə körpə oğlan uşağı gəzdirərdilər. Hətta belə deyirlər ki, elçi gedən zaman qızdan ilk soruşduqları söz bu olardı: “Qızım, xalça toxumağı bacarırsan?” Cehizlik xalça toxumaq, ərə gedən qıza ata evindən imkan olarsa, xalça bağışlamaq hələ qədimdən adət olubdur.

Xalça verərlər gəlinə.
Dolça verərlər gəlinə,
Bizim yerin adətidir.
Xalça verərlər gəlinə [2, s. 156].

Elə ki, xalça toxunub qurtardı, bu zaman bir oğlan uşağı xalçanın kücü ağacını götürüb at edib üstünə minər. Evin ətrafına dolanardı. Xalça sahibi ona şirinlik verib bu ağacı alardı. Yaxud da kiminsə evində xalça toxunarsa, tezliklə o evdə xeyir iş olacağına inanardılar. Və ya xalçanın ilmələrinin sökülməsi həmin insanın düşdüyü çətinliklərdən xilas olunması əlamətidir. Digər bir inanca görə yuxuda bir nəfər xalça görərsə bu onun tezliklə uzaq bir səfərə çıxacağına işarədir. Xalça ilə bağlı bir deyim də vardır. Bu deyimdə xalça toxuyan qız öz içindən keçəni xalçaya tökmüşdür.

Ay oğlan, çaş-baş oğlan,
Yadlara sirdaş oğlan,
Xalıya namə yazmışam
Oxu, bağrı daş oğlan.

“Xalça mübarək” – xalça toxunub qurtardıqdan sonra onun təntənəli şəkildə hanadan kəsilməsi mərasimini keçirərlər, qohum-qonşular təbrikə gəlir. Keyfiyyətli xalça toxuyana əmək haqqından əlavə “xələt” adlı peşkəş ənam verərdilər. Hananı kiminsə evinə aparanda deyirlər ki, bu gün hana qonaq getdi. Getdiyi yol açıq olsun, toxunan xalça evə xoşbəxtlik gətirsin [9, s. 72].

Bir məsələni də qeyd edək ki, xalçaçılıq sənətini başqa sənət sahələrindən fərqləndirən cəhəti ondan ibarətdir ki, bu sahə ancaq qadın əməyinə əsaslanmaqdadır. Belə ki, Naxçıvanda qızlar çox erkən yaşlarında xalça toxumağa alışdırılırdı.

**Boyaqçılıq.** Xalça toxunması zamanı ipliklərin boyanması əsas işlərdən biri hesab olunur. K.Vəliyev boyaqçılıq sözünün boyaq çiçəyinin adından törədiyini qeyd edərək yazır ki, boyaq çiçəyindən hələ qədimlərdən rəng alıblar. Bu sözdən boyamaq, ondan boyaq, boyaqdan isə boyaqçı törəyib [11, s. 100]. İpliklərin boyanması prosesini üç əsas mərhələyə ayırmaq olar: ipliklərin boyanmaya hazırlığı, ipliklərin boyanması, boyanmış ipliklərdə boyağın möhkəmləndirilməsi mərhələsi. G.Abdulova öz tədqiqatlarında qeyd edir ki, xalq arasında təbii boyama üsuluna “xasa”, kimyəvi boyaqlarla boyama üsuluna isə “əməli” deyilirdi. Əgər toxucular xalçanı öz tələbatları üçün və ya xüsusi sifarişlə toxuyurdularsa, “xasa” boyama üsulundan istifadə edirdilər. Xalça satış (bazar) üçün nəzərdə tutulduqda isə, demək olar ki, çox vaxt asan və ucuz başa gələn “əməli” üsula üstünlük verilirdi. Etnoqrafik materiallar xalq təcrübəsində təbii boyaqlardan istifadənin müxtəlif üsulları olduğunu göstərir.

Boyaq bitkiləri çox vaxt qurudulmuş şəkildə, bəzən də olduğu kimi boyama prosesinə cəlb edilib. Hələ e. ə. V əsrdə yaşamış yunan tarixçisi Herodot Qafqazda, o cümlədən də Azərbaycan ərazisində boyamanın sirlərinə bələd olunması haqqında məlumat verirdi. O qeyd edirdi ki, həmin yerlərdə ağaclar elə yarpaqlarla örtülüb ki, bu yerlərin adamları həmin yarpaqları yuyub su ilə qarışdırdıqdan sonra əmələ gələn məhlulla öz geyimləri üzərində naxışlar çəkirdilər. Bu naxışlar yuyulsa da, silinmirdi və material da, əsasən yun parçalarda elə bil əvvəlcədən toxunurdu [5, s. 9].

Xalçanın gözəl alınmasında boyaqçının boyağı mühüm şərtdir. Yunun yuyulması boyaqçılıqda ilkin mərhələni təşkil edir və yunun boyağı yaxşı götürməsi bu mərhələdən daha çox asılı olurdu. İpin boyanması ilə əsasən yazda və payızda məşğul olurdular. Verilən məlumata görə, yazda boyanan yun günəş şüalarının təsiri altında daha keyfiyyətli olurdu. Lakin isti havayla əlaqədar olaraq yayda hamı toxuculuqla məşğul ola bilmirdi. Buna görə də ipboyama ilə əsas etibarilə payız aylarında məşğul olurdular. Bu zaman təbii boyaq otlarının və meyvələrinin hamısı toplanırdı. Bunun başqa bir səbəbi onunla bağlı idi ki, toxuculuq sənətində aparıcı rola malik olan qadınlar yayda əkinçiliklə məşğul olurdular. Yalnız əkin-biçin sovuşduqdan sonra onlar toxuculuqla məşğul olmaq imkanı əldə edirdilər.

Boyama zamanı kələfi qazanın içində çox saxlamırdılar ki, dolaşmasın, əgər çox saxlanılardısa ip dolaşardı. İpi boyayan zamanı boyağın içinə yaxşı “tutsun” deyə zəy və duz atırdılar.

Boyaqçılıq sənəti ilə məşğul olan ustalar ayrı-ayrı bitkilərdən, gül-çiçəkdən, ağac qabıqlarından ipləri boyamaq üçün müxtəlif rənglər alırdılar. Məsələn, sarı rəng almaq üçün tut ağacının yarpaqlarından, zirincin kötüyündən və samandan istifadə olunmuşdur. Tut ağacının yarpağından sarı rəngin alınmasını mərhum etnoqraf alim H.Quliyev də yazmışdır [7, s. 26]. Qırmızı rəng əldə etmək üçün boyaq otundan, qara rəng almaq üçün isə çörək otu bitkisindən istifadə edirlər. Xalq arasında o “bağça boyağı” da adlanır. Müəyyən rəng almaq üçün nar, cövüz qabıqlarından da istifadə edirdilər.

Rəngləri eyni suda ardıcıllıqla bu cür alırdılar.

Birinci sarı, sonra narıncı, sonra qırmızını eyni suda hazırlayırdılar. Yaşılı və göyü rəngləri isə ayrı edirlər. Ən asan alınan rəng isə qara olurdu.

Nənələrimiz boyaq kimi zəfərandan da istifadə etmişdilər. Sənətşünas alimlər isbat etmişlər ki, dahi italyan alimi Leonardo da Vinçi hazırladığı rənglərə zəfəran da qatarmış. Bu da alınan rəngin şux sarı, özü də silinməz olmasını təmin edərdi. Bir məsələni də vurğulamaq istərdim ki, XVII əsrdə Naxçıvanın Azadciran mahalı Şərqin və Avropanın bir çox ölkələrini boyaqotu (marena) ilə təmin edirdi.

Müxtəlif çeşidli toxuculuq məhsullarının istehsalında yerli və xarici ölkələrdən gətirilmiş boyaq maddələrindən istifadə edilirdi. Bunlardan adını çəkdiyimiz marena, zəfəran, limon şirəsi, nar qabığı, indiqo, lazurit (lacivərd daşı), Braziliya və yapon ağaclarından hazırlanan boyaq maddələri göstərilmişdir ki, indiqo və yapon ağacı Hindistandan, Braziliya ağacı Avropadan, lazurit Orta Asiyadan gətirilirdi. Görünür bölgədə yaşayan boyaqçı ustalar uzun illər ərzində qazandıqları təcrübələr əsasında çeşidli boyalar almağı və onlardan istifadə etməyi mükəmməl bacarırmışlar [3, s. 173].

C.Mustafayev yazır ki, xanlıqlar dövründə Naxçıvan bölgəsində dörd müstəqil boyaqxana fəaliyyət göstərirdi ki, onlardan üçü Naxçıvan şəhərində biri isə Ordubadda yerləşirdi [8, s. 103]. XIX əsrdə, daha dəqiq desək 1897-1898-ci illərdə Naxçıvan şəhərində 8 boyaqxana fəaliyyət göstərdiyi qeyd edilir [5, s. 85].

Tədqiqatçı alim Tofiq Baba yazır ki, qadınlar ipi boyayarkən belə mahnılar da oxuyurdular:

Alınan abı, ellər babı.
Alınan yaşıl, xub yaraşır.
Alınan sarı, gəl mənə sarı.
Ağınan qara, yaraşır yara [2, s. 155].

Topladığımız etnoqrafik çöl materiallara görə boyaq yaxşı tutsun deyə kələfi ilk öncə soyuq suda yuyardılar, sonra sıxıb qazanın, küpün içinə salırdılar. Küpün içində kələfin qalma müddəti düyünün bişməsi ilə ölçülürdü. Belə ki, kələfi suya salanda bir ovuc düyü küpün içinə atardılar. Düyü bişəndə, artıq kələfin yetərincə boya tutduğu bilinərdi. Kələf elə ki, boya-rəng tutdu, sonra qazandan çıxarılıb sərilirdi. Kələf suyunu süzdükdən sonra soyuq su ilə bir dəfə də yuyardılar. Əgər yuyulan zaman ipin rəngi gedərsə, deyərlər ki, bu yaxşı tutmayıb və ya boyaqçı peşəkar deyil.

**Ermənilər Azərbaycan xalçalarını özününküləşdirir**. Öncə onu qeyd edək ki, Ermənilər nəyinki xalçalarımızı, xalqımıza məxsus olan bütün maddi-mədəniyyət nümunələrinə, milli-mənəvi dəyərlərimizə sahib çıxmağa başlamışdırlar. Onları özününküləşdirməyə çalışırlar. Qərb alimi Ulrik Şurman Qafqaz xalçalarına həsr etdiyi kitabında da Azərbaycan xalçalarının tarixi və özünəməxsus xüsusiyyətləri “Qafqaz xalçaları” adı altında təqdim edilir. Nəticədə, ayrıca bir ölkə kimi nə Azərbaycanın, nə də onun xalqının adı çəkilmir. Erməni xalçalarından bəhs edildiyində Azərbaycan xalçalarından deyil, ayrı-ayrı coğrafi bölgələrdən (Qarabağ, Şirvan və s.) danışılır, bu bölgənin əhalisinin etnik tərkibi saxtalaşdırılır. Qafqaz xalçaları içərisində erməni xalçalarının rolu şişirdilir. “Əjdaha” motivindən danışılarkən qeyd edilir ki, bu ornamentlər İrandan iqtibas edilmiş və Qafqazda ermənilər tərəfindən yayılmışdır. Bütün bunlar tamamilə absurd və həqiqətdən uzaqdır. Çünki ermənilər tarix boyu xalça toxuyan yox, xalça yaradan yox, onu satan, tüccar olublar [10, s. 127].

**Nəticə.** Tədqiqatlar nəticəsində məlum oldu ki, xalçaçılıq sənətinin inkişafı xammal ehtiyatının, boyaq maddələrinin zənginliyi və qoyunçuluğun inkişafı ilə sıx bağlı olmuşdur. Bu sahələrin inkişafı XVIII-XIX əsrlərdə Naxçıvanda xalçaçılıq sənətinin inkişafına yüksək təsir göstərdi. Belə ki, bu sənətin inkişafı xalqımızın adət-ənənələrinə də siyarət etmişdir. Naxçıvanda toxunan xalçalar öz kompozisiyasına görə Azərbaycanın digər bölgələrindən fərqlənmişdir.

## ƏDƏBİYYAT

1. Azərbaycan etnoqrafiyası: 3 cilddə. I c., Bakı: Şərq-Qərb, 2007, 544 s.
2. Babayev T. El ocaq başına yığışar. Bakı: Azərnəşr, 1998, 204 s.
3. Hacıyeva S., Əliyev İ. Naxçıvanda boyaqçılıq sənəti // Naxçıvan Universitetinin Elmi əsərləri. İqtisadiyyat, filologiya, tarix, coğrafiya, pedaqogika və psixologiya, riyaziyyat, 2018, № 2 (9), s. 170-175.
4. Herodot. Tarix: 9 kitabda. Birinci hissə / Azərbaycan dilinə tərcümə edən Pənah Xəlilov, Bakı: Azərnəşr, 1998, 329 s.
5. Həbibbəyli İ., Muradov V. Naxçıvan xalçaçılığı: Ənənə və müasirlik. Bakı: Elm, 2017, 284 s.
6. Həbibullayev O. Kültəpədə arxeoloji qazıntılar. Bakı: Azərb. SSR. EA. nəşriyyatı, 1959, 180 s.
7. Quliyev H. XIX əsr XX əsrin əvvəllərində yun ipinin xüsusi üsulla boyadılmasının tarixi və öyrədilməsi haqqında / AEM. I buraxılış, Bakı: Azərb.SSR EA nəşriyyatı. 1964, s. 7-38.

8. Mustafayev C. Xanlıqlar dövründə Azərbaycanda sənətkarlıq. Bakı: Elm, 2002, 272 s.
9. Şirəliyeva Ü. Azərbaycan adət-ənənəsində xalça // Təsviri və dekorativ-tətbiqi sənət məsələləri, 2012, № 1 (9), s.71-74.
10. Şurman U. XVIII-XIX əsrlərdə Qafqazın müxtəlif bölgələrində xalçaçılıq sənətinin müfəssəl təqdimatı // Qafqaz Xalçaları, 2013, 3 c., № 7, s. 124-129.
11. Vəliyev K. Elin yaddaşı, dilin yaddaşı. Bakı: Gənclik, 1987, 280 s.
12. http://azerbaijan.az/portal/Culture/Folk/folkArts_01_a.html

***AMEA Naxçıvan Bölməsi***
***E-mail: aseforucov@yahoo.com.tr***

**Asef Orujov**

**CARPET WEAVING ART AS AN EXAMPLE OF NATIONAL SPIRITUAL VALUES**
**(based on Nakhchivan materials)**

The article examines the history of the formation and development of carpet weaving in Nakhchivan. As a result of the research, it was found that carpet weaving was discovered in ancient times, but reached its highest level of development in the Middle Ages. As a result of the study, customs and belief systems related to carpet weaving, as well as dyeing craft in the art of folk painting, were studied. The article also discusses the unfounded claims of Armenians to Nakhchivan carpets.

**Keywords:** *Nakhchivan, carpet weaving, national spiritual values, dyeing.*

**Асеф Оруджев**

**ИСКУССТВО КОВРОТКАЧЕСТВА КАК ПРИМЕР НАЦИОНАЛЬНЫХ ДУХОВНЫХ ЦЕННОСТЕЙ**
**(по материалам Нахчывана)**

В статье рассматривается история становления и развития ковроткачества в Нахчыване. В результате исследований выяснено, что ковроткачество было открыто еще в древности, но достигло наивысшего уровня развития в средние века. В результате исследования были изучены обычаи и системы верований, относящиеся к ковроткачеству, а также красильному ремеслу в искусстве народной живописи. В статье также обсуждаются безосновательные претензии армян на нахчыванские ковры.

**Ключевые слова:** *Нахчыван, ковроткачество, национальные духовные ценности, крашение.*

*(Tarix elmləri doktoru Şirin Bünyadova tərəfindən təqdim edilmişdir)*

**Daxilolma tarixi: İlkin variant 20.09.2024**
**Son variant 17.10.2024**